UOT 82
https://doi.org/10.59849/2311-8482.2024.3.15

**LEYLA HƏSƏNOVA***

# SƏMƏD VURĞUNUN ROMANTİK LİRİKASI

*XX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli qələm sahiblərindən biri olan Səməd Vurğunun yaradıcılığı olduqca zəngin və rəngarəngdir. Azərbaycanın ilk Xalq şairi olan Səməd Vurğun hər şeydən əvvəl öz* şeirləri *ilə poeziya tariximizdə yeni bir cığır açmışdır. Onun lirikasına nəzər saldıqda diqqəti ilk cəlb edən* şeirlərində mövcud olan romantik vüsətdir. Səməd Vurğunun şeirlərində *olan romantika adi, sadə bir romantika deyil. Bu Vurğun qələminə xas, onun ilhamının qaynaqlandığı, sərhədləri hüdudsuz olan bir romantikadır. Məqalədə Səməd Vurğunun məhz bu kateqoriyaya daxil olan* şeirləri tədqiqata cəlb olunmuş və bu barədə dolğun fikirlər irəli *sürülmüşdür.*

***Açar sözlər:*** *Səməd Vurğun, poeziya, ədəbiyyat, romantik lirika.*

## Giriş

XX əsr Azərbaycan poeziyasının ən uğurlu qələm sahiblərindən biri, ilk xalq şairi ünvanına sahib olan Səməd Vurğunun lirikası romantik ənənələr üzərində köklənmişdir. Şairin şeirləri ilə yanaşı poemaları, pyesləri – bütünlüklə yaradıcılığı romantik pafos əsasında qələmə alınmışdır. Doğrudur, Səməd Vurğun da dövrün digər şair və yazıçıları kimi bəzən siyasi şeirlər yazmış, öz romantik düşüncələrini sənətindən kənarda saxlamağa məcbur olmuşdur. Lakin bütün bunlar yenə də onu romantikadan kənarlaşdıra bilməmiş və şairin isteadı yenidən öz bənzərsizliyini bu üslubla sübut etmişdir. Səməd Vurğunun bədii dünyagörüşünün romantik istiqamətdə inkişafında milli romantiklərimizlə yanaşı, Türk, Avropa və Rus romantiklərinin də güclü təsiri olub. Türk ədəbiyyatından Tofiq Fikrət, Nazim Hikmət şeirinin təsiri daha çox romantik ənənələrlə bağlı idi. Eyni zamanda, Səməd Vurğun Avropa ədəbiyyatını öyrəndiyinə, bu ədəbiyyatdan tərcümələr etdiyinə görə də Avropa romantiklərindən Corc Bayron, Şiller kimi böyük istedadların yaradıcılığından təsirlənib və bu şairin poeziyasına romantik bir keyfiyyət aşılayıb. Şair həm də Rus ədəbiyyatı ilə yaxından tanış olduğuna, Moskva ədəbi mühiti ilə olan birbaşa bağlılığından dolayı avanqardizm, dekadentizm, futurizm, hətta klassisizm Vurğunun baxışlarına yad olmayıb, şair bu barədə qiymətli fikirlər söyləyib. Lakin bütün bunlarla yanaşı qeyd edə bilərik ki, Səməd Vurğunun poeziyası daha çox romantizm cərəyanının ənənələri əsasında formalaşıb və inkişaf edib.

## Əsas təhlil

Səməd Vurğun hər nə qədər Sovet hakimiyyəti dövründə ədəbiyyatda əsas aparıcı mövqe tutan sosializm realizmi fonundan çıxış etsə də, şair xəyalsız, ilhamsız yazılan əsərin bir qiyməti olmadığını çox gözəl dərk edir və bunu dilə gətirməkdən çəkinmirdi. Məsələn, Səməd Vurğun 1943-cü ldə "Vətən müharibəsi və ədəbiyyatımız" adlı məruzəsində qeyd edir: "Biz realistlərik. Sovet ədəbiyyatının ən böyük xüsusiyyəti odur ki, o realist ədəbiyyatdır. Lakin bu realizmdən sui-istifadə edirik. Buna görə də bəzən əsərlərimizdə realizm çox quru və qaba bir şəkil alır... Bizim ediblərimiz və şairlərimiz çox zaman həyatın temalarını romantik və yüksək fantaziya qanadları ilə uçurmağı bacarmırlar. Biz ədəbiyyatımıza yüksək romantika və xəyal qanadları verməklə əsərlərimizi quru realizmdən azad edə bilərik. Unutmayaq ki, həqiqi realist varlıq və hadisə özündə yüksək romantika yaşadır." [7, 266] Bu fikirlər şairin təkcə ədəbiyyata məhəbbətindən yox, həm də onun böyük cəsarətindən, yaradıcılıq hünərindən irəli gəlirdi.

Səməd Vurğunun romantik mövqeyi 30-cu illərdə daha da qüvvətlənməyə başlayır. Şairin 1935-ci ildə qələmə aldığı "Sənət eşqi" şeirindən gətirdiyimiz aşağıdakı nümunəyə nəzər salaq:

Vuruldum o gün ki, şerə, sənətə,
Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə,
Əlim qələm tutub yazandan bəri. [2, 138]

Burada Səməd Vurğun sanki öz şeirinin iki əsas obyekt və predmətini bəyan edir: insan və təbiət! Həqiqətən də, insan və təbiət Vurğun romantikasının iki əsas qüdrət mənbəyidir. Ümumiyyətlə, təbiət

təsvirlərini verməklə şair sanki bir növ insanın daxili aləminə səyahət etmək, onun qəlb dünyasına nüfuz etməyə çalışır:

Bəzən xəyalımda uçur buludlar,
Bir qətrə böyüyüb bir dəniz olur.
Dünyanın ölməyən bir qanunu var,
Bir yandan boşalır, bir yandan dolur. [5, 191]

Eyni zamanda qeyd edə bilərik ki, təbiət təsvirləri şairin poeziyasında vətənin rəmzi və ən qüdrətli ilham mənbəyidir. “Təbiət ilhama çağırır məni” leytmotivi Səməd Vurğun şeirinin ana xəttidir desək yəqin ki, yanılmarıq. Şair ən çətin məqamlarda belə təbəiətə üz tutmaqdan çəkinmir, onu şeirinin əsas leytmotivinə çevirirdi. 1937-ci ilin ağır repressiya günlərində, insanların günahsız yerə şərlənərək həbs edildiyi, sürgün olunduğu, qətlə yetirildiyi zamanlarda da Vurğun üzünü yenə təbiətə tutur, sanki təbiətin təmizliyində, günahsızlığında mənəvi rahatlıq tapırdı:

Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir,
Var olsun şeirimiz, şairlərimiz!
Hər gülə-çiçəyə təzə ad verir. [5, 239]

“Bahar və mən” şeirindən olan bu nümunədə də gördüyümüz kimi müəllifin seçdiyi təbiət detalları da, şairin onlara münasibəti də romantikdir. Həyata romantik münasibət ümumən Səməd Vurğun şeirinə xas başlıca xüsusiyyətdir. Şair təbiəti də olduğu kimi yox, görmək istədiyi kimi tərənnüm edir. Daha dəqiq desək, gerçəkliyin təbii olayına, təbiət predmətinə öz istədiyi obrazı geyindirir və onu xəyal dünyasının ən uca zirvəsinə qaldırır.

Repressiyaya məruz qalanların qanı hələ qurumamış, fəryadları qulaqlardan çəkilməmiş şair real gerçəklikdən, amansız totalitar cəmiyyətdən üzünü yenidən xəyal aləminə çevirir. 1939-cu ildə yazdığı “Xəyal” şeirində şair xəyalının baş götürüb çıxdığı dağlara, saf və günahsız ana təbiətə üz tutur, onun qucağına sığınır:

Ah gözəl təbiət! Mehriban ana!
Əzəldən bağlıdır varlığım sana...
Al məni, yenə al qoynuna bu gün,
Dola qollarını boynuma bu gün,
Bir öpüm doyunca o saf üzündən,
Keçim xəyalımın ceyran düzündən...[6, 25]

Bütün romantik duyğulara can və qan verən Xəyal bu şeirdə bir bitməzlik, tükənməzlik, hüdudsuzluq, sonsuzluq rəmzi kimi poetikləşir. Şeir şairin özünə verdiyi belə bir sualla yekunlaşır: “Dedim ki, varmıdır xəyalın sonu?”. Həqiqətən də, Səməd Vurğunun xəyalının, ilhamının sonu yoxdur. Şair öz romantikasını, xəyal dünyasını elə sadə və adi bir dillə oxucusa açır ki, insanı sanki xəyal dənizinin burulğanına atır. Səməd Vurğunun romantik şeir sənəti ulduzları göydən yerə endirməyi bacaran misilsiz gözəlliyə və ecazkar qüdrətə malik milli və xəlqi bir sənət idi.

XX əsrin 40-cı illərində, xüsusilə də müharibədən sonrakı qalibiyyət və vüsətli quruculuq illərində Səməd Vurğun şeirində beynəlxalq mövzular və romantik pafos daha da güclənir. Əvvəllər xəyaldan ilhamlar almamaq üçün böyük şücaət göstərən şair, 40-cı illərdə artıq bunun mənasız olduğunu anlayır və bu siyası bataqlıqdan sanki çıxmağa çalışırdı. Həmin dövrdən başlayaraq artıq Vurğun siyasi mövzulara daha az müraciət edir, bunun yerinə isə öz xəyalının qanadlarında yüksəyə ucalmağı seçirdi. Şairin 1948-ci ildə yazdığı “Bəstəkar” şeiri deyilənləri bir daha təsdiq edir:

Ürəkdir insana ən yaxın sirdaş,
Dostluğu dar gündə unutmaz könül.
İlham pərisindən ayrılma qardaş,
Onunla bir ağla, onunla bir gül. [6, 176]

Şair bu şeirində həm də “hər kiçik zərrədə bir ümman axtar” deyərək vəhdəti-vücud fəlsəfəinə əsaslanır. Vurğuna görə simdə həyat dil açarsa xəyal qanadlanıb, ürək titrəyər. Təxminən on il əvvəl öz müasirlərini ilham pərisinə uymamağa çağıran şair artıq burada ilham pərisindən ayrı düşməməyi onun xəyalı ilə yaşayıb yaratamağı öz qələm yoldaşlarına tövsiyyə edir.

Eyni ildə şairin qələmə aldığı “Təbiət ilhama çağırır məni” şeirini Səməd Vurğun yaradıcılığında romantik təmayülə keçid mərhələsi kimi dəyərləndirmək olar. Məhz bu şeirdə S.Vurğun ilhamının

poetik uçuşunu görmək mümkündür. Burada isə Vurğun romantikasını səmalara ucaldan iki qanad var: təbiət və məhəbbət:

Yenə də yam-yaşıl geyinir dağlar
Göz kimi durulur qaynar bulaqlar.
Əriyir güneylər döşündəki qar
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni! [6, 174]

Şeirin hər bəndinin son misrasında şairi ilhama çağıran – ona ilham verən güc mənbələri sadalanır: təbiət, məhəbbət, nemət, hikmət, şeiriyyət, qüdrət, sürət, səadət, sənət, ülfət! Bəli, ən ali hisslər, nəcib duyğular, təbii və mənəvi gözəlliklər şairin ilhamının əsas qüdrət mənbələridir.

Səməd Vurğunun romantik lirikasında psixoloji paralellizm olduqca güclüdür. O öz obrazını çox vaxt cəmiyyət amili üzərinə deyil, daha çox təbiət fakturasına köçürür. Bu ümumiyyətlə, XX əsr Azərbaycan şeirinin iki əsas yaradıcılıq istiqamətindən birincisi olan lirik-romantik təmayülə xas xüsusiyyətdir. Səməd Vurğun və Mikayıl Müşfiqin ardınca Nəbi Xəzri, Hüseyn Arif, Musa Yaqub, Məmməd İsmayıl, Zəlimxan Yaqub və s. kimi bu təmayülə mənsub şairlər təbiətin təkcə gözəlliyini tərənnüm etməklə kifayətlənməyib, vətənin rəmzi olan təbiətin təbii, sadə və səmimi fəlsəfəsini insanlığın ədəbi səadəti kimi poeziyaya gətirmişlər. Bu cəhətdən Səməd Vurğunu "Bahar düşüncələri" şeiri xüsusi diqqəti cəlb edir. Şeir Şah İsmayıl Xətainin "Dəhnamə", Molla Pəbah Vaqifin "Hayıf ki yoxdur", Aşıq Ələsgərin "Dağlar" kimi şeirləri ilə müqayisə oluna biləcək bir poetik vüsətdədir:

Bahar, istəklimsən başdan binadan,
Ən gözəl qızısan sən təbiətin!
Xoşbəxt yaranmısan xoşbəxt anadan
Gözünün odusan şerin, sənətin
Ən gözəl qızısan sən təbiətin. [6, 215]

Bahar Vurğuna yaraşan ən uğurlu romantik obrazdır. Bahar hər il gələrək təbiəti təzələdiyi kimi, S.Vurğunun romantik şeiri də yeni gələn gənc nəsillə təzələnir, saralıb solmaq bilmir. Şair şeirin sonunda özüdə bu məqama toxunur, nəsildən-nəsilə təzələşməyi əsas uğur hesab edir.

Min il ömür sürək səninlə qoşa,
Bir canda döyünən iki ürək tək.
Min il nəfəs verək torpağa, daşa,
Nəsildən-nəsilə təzələşərək. [6, 216]

Əsrin 50-ci illərinə doğru Səməd Vurğun artıq daha çox qocalıq, ömür, tale haqqında olan şeirlər yazmağa başlayır. Çünki şairi bu məsələlər artıq daha çox düşündürür, ömrünün sonuna yaxınlaşdığını şair qəlbi sanki hiss edirdi. Əlbəttə, bu həm də şairin sağalmaz xəstəliyi ilə bağlı idi. Lakin hər nə qədər çətin, ağrılı-acılı bir dövrdən keçsə də şair heç vaxt ruhdan düşməmiş, öz şairlik qürurunu və ümidini itirməmişdir. Şairin həmin dövrdə yazdığı və ən çox sevilən şeirlərindən olan "Şair nə tez qocaldın sən?!" lirik-romantik minatürünə nəzər salaq:

Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir.
Ömrü keçir bir adətlə,
Uğurlu bir səadətlə,
Görən məni nədir deyir:
Saçlarına düşən bu dən
Şair nə tez qocaldın sən?! [6, 212]

Bu şeirin əsas xüsusiyyəti sözlərin yerində dəqiq işlənməsində, duyğuların təbiiliyində və səmimiyyətindədir. Şeiri oxuduqca insan istər-istəməz nəcib duyğulara qapılır. Oxucuda şairin taleyi və ümumən insan ömrü haqqında kövrək hisslər oyanır. Bu şeiri həm də lirik-poetik portret adlandırmaq olar. Burada ağarmış saçlardan daha çox şairrin alovlu ürəyi diqqəti çəkir. Şeirdə şairə əlində gül gətirən gözəlin də, ürək yaxan iblisin də surətləri aydın poetik ifadəsini tapır. Əsərdə saçının ağarması lirik qəhrəmanı qəmləndirmir, çünki saç ağarsa da qələm hələ də onun əlindədir. Ümumiyyətlə, şeirdə qələm adi bir detaldan, predmet olmaqdan çıxaraq şairin ömür dastanını yazan yaxın bir dostuna, sirdaşına çevrilir.

Səməd Vurğunun 1954-cü ildə yazdığı məşhur "Mən tələsmirəm" şeiri də yuxarıda deyilənləri

sübut edəcək xüsusi bir poetik vüsət daşıyır. Bu şeir sanki böyük şairin bir növ dünyaya bəyanatı idi. Şeiri yazarkən şair artıq ömrün vəfasızlığını hiss etməyə başlamışdı, buna görə də dediyinin əksinə olaraq o tələsirdi, öz arzularını, planlarını həyata keçirməyə tələsirdi. Hərçənd ki, bu adi şeir deyildi. V. Belinskinin sözləri ilə ifadə etsək, "bu sözlə çalınan" tale nəğməsi idi. "Mən tələsmirəm" şeirinin hər bir bəndi, hər bir misrası həyat eşqi ilə doludur: Mehriban düşüncələrin qucağnda qızınmaq həvəsi, hələ yer üzündə deyib-danışmaqdan doymamış şairin arzuları, hər bir anın ömrünü uzatmaq istəyi, vatı tutub saxlamaq niyyəti şairin lirik-romantik qəhrəmanının həyat eşqindən xəbər verir. "Demə ki, yorğunam, ya qocalmışam // Mən hələ dünyadan nə zövq almışam?" bədii-fəlsəfi sualı lirik qəhrəmanın psixoloji durumunu səciyyələndirir. Fikrinin səyyar yelkəninə güvənib dənizdən-dənizə atlanmaq istəyi, şimşəklərlə yanaşı göydə çaxmaq kimi coşqun romantik istək "Mən tələsmirəm" şeirinin bədii-poetik pafosunun müəyyənləşdirir. Şeir ümid dolu bir ahənglə davam edir:

Hər gülə-çiçəyə salam verməsəm,
Xoş üz göstərməsəm, xoş üz görməsəm,
Nanələr, reyhanlar inciyər məndən,
Güllərin yarpağı tökülər dən-dən.
Odur ki, yel olub çöldə əsmirəm
Heç yana, heç yerə mən tələsmirəm! [6, 225]

Səməd Vurğun bu şeirində olduqca dərin insanı hissləri əbədiləşdirib. Şair – lirik qəhrəman hələ yaşamaqdan, təbiəti seyr etməkdən, insanlara xoş üz göstərməkdən doymayıb.

**Nəticə.**

Səməd Vurğunun yaradıcılığında romantika şairin fəlsəfi-estetik dünyagörüşünü əks etdirir. Şair həyatda, reallıqda, gerçəklikdə olanın əlamətlərinə istinad edib, öz xəyallarının "Mən"ini yaradır. Xəyali "mən", xəyali surət real "mən"dən çox-çox daha genişdir. Gələcəyə inam, işıqlı sabahları görmək arzusu Vurğunun romantikasının qidalandığı başlıca mənbələrdir. Böyük şair sovet diktator rejiminin ən tüğyan etdiyi vaxtlarda belə bu nikbinlikdən əl çəkmir, sanki öz şeirləri ilə xalqın əhval ruhiyəsini yaxşı tutmağa, onlarda işıqlı gələcəyə inam aşılamağa çalışırdı. Səməd Vurğunun yaradıcılığı yüksək dinamikaya, poetik vüsətə, fikri-xəyali coşqunluğa malik idi. Onun şeirləri real həyata olan sevgidən, folklorun adət-ənənələrindən, xalq-aşıq şeirinin bənzərsizliklərindən qidalanırdı. Beləliklə, ümumiləşdirmə aparıb deyə bilərik ki, xalq şairi Səməd Vurğunun romantikası şair qəlbinini həyata keçməmiş arzularının gələcəyə ünvanlanmış ən gözəl əbədiyyət məktubudur.

**ƏDƏBİYYAT**

1. XX əsr Azərbaycan poeziyası antoloiyası. I kitab (20-ci illərin poeziyası). Bakı: Elm, 2009, 408 s.
2. XX əsr Azərbaycan poeziyası antoloiyası. II kitab (30-cu illərin poeziyası). Bakı: Elm, 2010, 369 s.
3. Vahabzadə Bəxtiyar. Səməd Vurğun. Bakı: Gənclik, 1984, 377 s.
4. Vəkilov Rafiq. Səməd Vurğunun ədəbi-tənqidi görüşləri. Bakı: Yazıçı, 1982, 204 s.
5. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 264 s.
6. Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə, II cild. Bakı: Şərq-Qərb, 2005, 248 s
7. Vurğun Səməd. Əsərləri. Altı cilddə, V cild. Bakı: Elm, 1972, 425 s.

***Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***Filologiya fakültəsi, müəllim***
***E-mail: leylamuzi@gmail.com***

**Leyla Hasenova**

**ROMANTIC LYRICS OF SAMAD VURGUN**

The creativity of Samad Vurgu, one of the most powerful writers of 20th century Azerbaijani literature, is very rich and colorful. Samad Vurgun, the first People's Poet of Azerbaijan, opened a new path in the history of poetry with his poems. When looking at his lyrics, the first thing that

attracts attention is the romantic mood present in his poems. The romance in Samad Vurgu's poems is not an ordinary, simple romance. This is a boundless romance, unique to Vurgun's pen, where his inspiration comes from. In the article, Samad Vurgu's poems included in this category were included in the research and full opinions were put forward.

**Keywords:** *Samad Vurgun, poetry, literature, romantic lyrics.*

**Лейла Гасанова**

**РОМАНТИЧЕСКАЯ ЛИРИКА САМЕДА ВУРГУ**

Творчество Самеда Вургу, одного из самых ярких писателей азербайджанской литературы XX века, очень богато и красочно. Самед Вургун, первый народный поэт Азербайджана, своими стихами открыл новый путь в истории поэзии. При взгляде на его тексты первое, что обращает на себя внимание – это романтическая атмосфера, присутствующая в его стихах. Романтика в стихах Самада Вургу – не обычный, простой романс. Это безграничный роман, уникальный для пера Вургуна, откуда исходит его вдохновение. В статье в исследование включены стихи Самада Вургу, входящие в данную категорию, и высказаны полные мнения.

**Ключевые слова:** *Самед Вургун, поэзия, литература, романтическая лирика.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 03.10.2024**
**Son daxilolma tarixi:10.11.2024**